# QAX: İNKİŞAFIN VƏ MÜASİRLƏŞMƏNİN YENİ MƏRHƏLƏSİ

**Ölkəmizin şimal-qərb bölgəsi özünün sosial-iqtisadi və mədəni inkişafı ilə diqqəti cəlb etməkdədir. Bu inkişaf və müasirləşmə o qədər sürətlə formalaşır ki, gördükcə fəxt etməyə bilmirsən. Sevinirsən, qürur hissi keçirirsən ki, bir zamanların "ucqar" adlandırılan dağ rayonları, indi təkcə təbiətin bəxş etdikləri ilə deyil, həm də urbanik inkişafla sanki bütün bu məsafələri qısaldaraq bir yaxınlıq, bir mərkəz təsiri bağışlayır. Qafqaz dağlarının qoynunda ucalan və şöhrətlənən Qax rayonu kimi.**

"...Qaxın çox gözəl təbiəti, gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcəkdə bu istiqamətdə daha böyük işlər görüləcəkdir. Nəzərə almalıyıq ki, Qaxın əsas infrastruktur layihələri də öz həllini tapmaqdadır". Qax rayonu haqqında bu dəyərli sözlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məxsusdur. Cənab Prezidentin qayğı və diqqəti sayəsində bu bölgə bütün istiqamətlər üzrə inkişafın, müasirləşmənin nümunəsinə çevrilir. Xüsusilə bu gün Qax rayonunun müasir turizm və istirahət mərkəzinə çevrilməsi faktı bir sıra infrastruktur proqram-layihələrin gerçəkləşməsinin təsdiqidir. Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev bildirir ki, istər daxili, istərsə də xarici turizmin diqqətini geniş mənada cəlb etmək üçün mövcud şəbəkələrin və yenilərinin inkişafı, fəaliyyət mexanizmi daim dünya standartlarına yaxınlaşmalıdır. Bu səbəbdən də son illər Qax rayonunun sosial-iqtisadi inkişafının bütün mərhələlərində bu perspektiv nəzərə alınır. Məsələ ölkə rəhbərliyi səviyyəsində tədqir olunmaqla yanaşı, proqram xarakterli tədbirlər də görülür, vəsaitlər də ayrılır.

Eyni zamanda Qax rayonunun sosial-iqtisadi inkişafının bütün istiqamətləri üzrə qazandığı uğurlar da fərəh doğurur. İnsanlar bayram əhval-ruhiyyəsindədir. Xalqın sevimlisi möhtərəm İlham Əliyevin yenidən prezident seçilməsi qaxlıları daha da ruhlandırır, onları yeni qələbələrə səsləyir. Elə 2018-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasdakı məruzə və çıxışların da nikbinliyi məhz gələcək uğurlardan xəbər verir. Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyevin məruzəsində deyildiyi kimi 2018-ci ilin birinci rübündə rayon üzrə məhsulun ümumi buraxılışı 27 milyon 970 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 57.5 faiz çoxdur. İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının tərkibində sənaye məhsulu istehsalı 2 milyon 800 min manat, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.5 dəfə artmışdır. Kənd təsərrüfatı məhsulu istehsalı 4 milyon 203 min manat və ya 5.9 faiz artmış, tikintidə 8 milyon 538 min manat və ya 9.1 dəfə artmış, nəqliyyatda 559 min manat və ya 2.9 faiz, rabitədə 261 min manat və ya 5.5 faiz, ticarətdə 11 milyon 609 min manat və ya 5.9 faiz çox olmuşdur. Əhalinin gəlirləri 23 milyon 266 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 921 min manat çox olmuşdur.



Cari ilin birinci rübündə rayon üzrə əsas kapitala investisiya qoyuluşu 10 milyon 613 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 11.1 dəfə çox olmuşdur.

Rayonda sahibkarlığın inkişafı və əhalinin işgüzar fəliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması məqsədi ilə 2018-ci ilin birinci rübündə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 3 lahiyə üzrə 2 milyon 10 min manat güzəştli şərtlərlə kreditlərin verilməsi təmin olunmuşdur. Hesabat dövründə rayonda 207 yeni iş yeri açılmış, orta aylıq əməkhaqqı 264 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 31.5 manat çox olmuşdur.

2018-ci ilin birinci rübündə rayonun gəlirləri 736.7 min manat proqnoza qarşı büdcəyə 858 min manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 116.5 faizini təşkil etməklə 121.4 min manat çoxdur. Büdcə daxilolmalarında dövlət müəssisələrinin xüsusi çəkisi 26 faiz və ya 221 min manat, qeyri-dövlət müəssisələrinin xüsusi çəkisi 60 faiz və ya 519 min manat, fiziki şəxslərin xüsusi çəkisi 14 faiz və ya 118 min manat təşkil etmişdir. Həmçinin birinci rübün yekunlarına görə xərclərin icrası 1 milyon 470 min manat proqnoza qarşı 1 milyon 429 min manat, yəni 97 faiz olmuşdur.

Hesabat dövründə rayonda 664 hektar sahədə yonca, 130.7 hektar sahədə tərəvəz, 171 hektar sahədə vələmir, 268 hektar sahədə kartof, 10 hektar sahədə qarğıdalı əkini aparılmış və 160 hektar sahədə yeni fındıq bağları salınmışdır. Rayonumuz üçün ənənəvi istehsal sahələri olan tütünçülüyün və baramaçılığın daha da inkişaf etdirilməsinə xüsusi diqqət verilərək bu sahələrdə zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Cari təsərrüfat ilində ötən illə müqayisədə 15 hektar çox olmaqla 620 hektar sahədə tütün əkini və ötən ildəkindən 12.5 ton çox olmaqla 25 ton həcmində yüksək keyfiyyətli barama istehsalı qarşıya məqsəd qoyulmuş və bununla bağlı lazımi hazırlıq tədbirləri həyata keçirilmişdir. Rayon Damazlıq İpəkçilik stansiyasında da ötən müddət ərzində mövsümə hazırlıqla bağlı müvafiq tədbirlər görülmüşdür. "İnter Tobacco" MMC tərəfindən müasir istixanalarda 1500 m2, ayrı-ayrı sahibkarlar tərəfindən isə sadə tipli istixanalarda 10800 m2 ərazidə tütün şitili yetişdirilmişdir.Tütün şitilinin sahələrə köçürülməsinə başlanılmışdır.

Rayonda yaradılmış Aqroparkda 2018-ci ilin birinci rübündə 191 hektar sahədə 177500 ədəd müxtəlif növ meyvə tinglərinin əkini aparılmışdır. Meyvə bağlarında damcılı suvarma sisteminin quraşdırılması üçün 500 tonluq su anbarının tikintisi başa çatdırılmış, 50 min m3-lik su anbarında tikinti və 5.5 km uzunluğunda elektrik xəttinin çəkilişi işləri davam etdirilmişdir. Hazırda idarəetmə mərkəzinin və hər biri 1500 ton olan 3 ədəd taxıl bunkerinin tikintisi işləri davam etdirilir.

Aqroservis filialı tərəfindən rüb ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına 600 ton azot gübrəsi, alaq otlarına qarşı kimyəvi mübarizə aparılması üçün 2500 litr həcmində müxtəlif növ dərman preparatları gətirilərək 70 faiz güzəştlə satılması təmin olunmuş, hazırda mineral gübrələrin rayona gətirilməsi istiqamətində işlər davam etdirilir. Ötən müddət ərzində filiala məxsus texnikalarla rayonun müxtəlif ərazilərində 400 hektar sahədə şum aparılmışdır. 985 hektar taxıl sahələrində taxıl böcəyinə qarşı, 2700 hektar taxıl sahəsində gəmiricilərə qarşı, 4160 hektar sahədə isə alaqlara qarşı kimyəvi mübarizə işi aparılmışdır.

Hesabat dövründə rayon ərazisində ekoloji durumun yaxşılaşdırılması, florasının zənginləşdirilməsi və ətraf mühitin mühafizəsinin təmin olunması sahəsində məqsədyönlü tədbirlər davam etdirilərək Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən 20 hektar dövlət meşə fondu torpaqlarında meşə əkini aparılmışdır. Müvəqqəti tinglik sahələrində 350 min ədəd əkin materialı yetişdirilir.

İlisu Dövlət Təbiət Qoruğu tərəfindən Dövlət yasaqlığı ərazilərinin və xüsusi mühafizə olunan təbiət əraziləri ilə həmsərhəd ərazilərdə fauna elementlərinin qorunması və mühafizə rejiminə əməl olunması ilə bağlı tədbirlər davam etdirilmişdir. Qoruğun illik fəaliyyət proqramına uyğun olaraq qoruqətrafı yaşayış məntəqələrində əhalinin ekoloji maarifləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Gənc nəslin ekoloji maarifləndirilməsi məqsədilə Qax şəhər 3 saylı və Ləkit kənd tam orta məktəblərində ekoloji dərs proqramı saatları keçirilmiş, eləcə də ekskursiya və praktiki çöl dərsləri təşkil edilmişdir. Hesabat dövründə ceyranların monitorinqi aparılmış, Acınohur-Sarıca ərazisində 58 baş ceyran müşahidə olunmuşdur. Ötən dövr ərzində mühafizə rejiminin pozulması ilə bağlı 2, qanunsuz qırıntı ilə bağlı 4 fakt aşkar edilərək inzibati cərimə tətbiq edilmişdir.



Hesabat dövründə rayonda heyvandarlıq məhsulları istehsalının intensiv inkişaf etdirilməsinə zəmin yaradan cins maldarlığın inkişafı və süni mayalandırmanın tətbiqinin daha da genişləndirilməsi istiqamətində aparılan tədbirlər davam etdirilmişdir. Belə ki, 1156 baş inək-düyə yüksək məhsuldar törədici toxumlarla süni yolla mayalandırılmış, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 155 baş çoxdur. Süni yolla mayalandırılmış inək-düyələrdən ötən ildəkindən 267 baş çox olmaqla 759 baş buzov alınmışdır.

Ötən müddət ərzində süni mayalanma nəticəsində doğulmuş balalara görə mal sahiblərinə 75900 manat məbləğində subsidiyanın verilməsi üçün müvafiq sənədlər hazırlanaraq Kənd Təsərrüfatı Nazirliyinə təqdim olunmuşdur. 2 nəfər heyvandarlıqla məşğul olan fiziki şəxsə respublikaya idxal olunan cins düyələrdən 3 başının lizinq yolu ilə satılması təmin olunmuşdur. Qoyunçuluqda döl kompaniyası müvəffəqiyyətlə başa çatmış, hər 100 ana qoyundan orta hesabla 95 baş salamat quzu alınmışdır. Rüb ərzində 4 özəl inkubasiyada 310 mindən çox bir günlük cücə çıxarılaraq əhaliyə satışı təmin olunmuşdur. Cari ilin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1.6 ton artaraq 557.7 tona, süd istehsalı 4.2 ton artaraq 2584.4 tona, yumurta istehsalı 6 min ədəd artaraq 2 milyon 18 min ədədə çatmışdır.

**Rayon ərazisində torpaqların su təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə 186.43 min m3 həcmdə lildən təmizləmə və 12 ədəd hidropostlarda, 11 ədəd hidroqurğuda təmir işləri aparılmışdır. Sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə 204.2 min m3 daşqın və selə qarşı məcratəmizləmə işləri aparılmış, 248 m3 qabyon və 636 m3 daş-beton bəndlərdə daşqın və selə qarşı sahilbərkitmə işlərinin aparılması üçün təmir işləri görülmüşdür.**

**(ardı gələn sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**